# Əmrin icrası barədə Bakı Şəhəri üzrə Təhsil İdarəsi müdirinin əmri

Müstəqil Azərbaycan dövlətinin qurucusu, qüdrətli dövlət xadimi və dahi siyasətçi Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar Ulu öndərin zəngin siyasi irsinin, şərəfli həyat və fəaliyyətinin gənc nəsil tərəfindən öyrənilməsi işini daha da gücləndirmək məqsədilə ümumtəhsil məktəblərinin şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsinin keçirilməsi barədə Azərbaycan Respublikası təhsil nazirinin 29.01.2019-cu il tarixli, F-53 nömrəli əmrinin icrasını təmin etmək məqsədilə

**ƏMR EDİRƏM:**

1. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar ümumtəhsil məktəblərinin şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsinin keçirilməsi barədə Azərbaycan Respublikası təhsil nazirinin 29.01.2019-cu il tarixli, F-53 nömrəli əmri rəhbərlik və icra üçün qəbul edilsin.

2. 2019-ci ilin aprel ayında "Ən yaxşı təqdimat" müsabiqəsinin ölkə mərhələsinin keçirilməsi nəzərə alınsın.

3. Müsabiqə iştirakçılarının "Ümummilli lider Heydər Əliyev-şərəfli ömrün salnaməsi" başlığı altında müəyyən olunmuş mövzuların adı yazılmış 12 zərfdən birini götürməklə orada qeyd olunmuş mövzu üzrə çıxış edəcəkləri nəzərə alınsın (əlavə edilir).

4. Müsabiqənin keçirilmə qaydaları, təşkilat komitəsinin tərkibi təsdiq edilsin (əlavə edilir).

5. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin tabeliyində fəaliyyət göstərən ümumi təhsil müəssisələrinin direktorları:

5.1. 28.02.2019-cu il tarixədək müsabiqənin məktəbdaxili mərhələsinin bitməsini və rayon mərhələsində iştirak edəcək şagirdin müəyyənləşdirilməsini təmin etsinlər;

5.2. Məktəbdaxili mərhələdə qalib olan şagirdin rayon mərhələsində iştirakını təmin etsinlər.

6. Bakı Şəhəri üzrə Təhsil İdarəsinin İnkişaf layihələri sektoruna (A.Tairquliyeva-Nağıyeva), Ümumi təhsil sektoruna (S.Bektaşi) və Təlimə Dəstək Mərkəzinə (Z.Ələkbərova) tapşırılsın:

6.1. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar ümumtəhsil məktəblərinin şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsinin keçirilməsi ilə bağlı ümumi təhsil müəssisələrini təlimatlandırsın;

6.2. Müsabiqəyə hazırlıqla bağlı məsələlərin həllində ümumi təhsil müəssisələrinə köməklik göstərilməsini təmin etsin;

6.3. Ümumi təhsil müəssisələrinin müsabiqədə yüksək səviyyədə iştirakını təmin etsin.

7. Təminat və təchizat sektoru (Ş.İsgəndərov) müsabiqənin keçirilməsindən irəli gələn təchizat məsələlərini həll etsin.

8. Maliyyə və mühasibatlıq sektoru (E.Mehdiyeva) müsabiqənin keçirilməsindən irəli gələn maliyyə məsələlərini həll etsin.

9. Ümumi sektor (S.Rəsulova) əmrin əlavələrlə birlikdə çoxaldılıb yerlərə çatdırılmasını təmin etsin.

10. İctimaiyyətlə əlaqələr sektoru (B.Məmmədov) əmrin İdarənin internet saytında yerləşdirilməsini və müsabiqə

çərçivəsində həyata keçiriləcək tədbirlərin kütləvi informasiya vasitələri tərəfindən işıqlandırılmasını təmin etsin.

11. Əmrin icrasına nəzarət müdir müavini H.Əsgərova  həvalə edilsin.

**Əsas:** Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı  ildönümü ilə əlaqədar ümumtəhsil məktəblərinin şagirdləri arasında "Ən yaxşı təqdimat" müsabiqəsinin keçirilməsi barədə Azərbaycan Respublikası təhsil nazirinin 29.01.2019-cu  il tarixli, F-53 nömrəli əmri.

***Rəşad Tağıyev,***

***Bakı  Şəhəri  üzrə Təhsil İdarəsinin müdiri***

***06  fevral 2019-cu il***

***№ F-87***

---

"Ən yaxşı təqdimat" müsabiqəsinin keçirilmə Qaydaları

---